**Azərbaycan Dövlət Aqrar Universiteti**

Aqrar İqtisadiyyat fakültəsi

Maliyyə və iqtisadi nəzəriyyə kafedrası

# SİLLABUS

# <u>VERGİ İNZİBATÇILIĞI</u>

**fənni üzrə tədris metodoloji istiqamət**

(iqtisadi yönümlü ixtisaslar üçün)

Şifrələr  və ixtisaslar : 050403-maliyyə

Payız və yaz semestri 2021

Kabinet:  Aqrar  iqtisadiyyat  fakültəsi 118-ci otaq

Mühazirə müəllimi: Dosnet B.Y.Novruzova

Mob : 070 257 26 47

Gəncə 2021

## Fənn haqqında məlumat

Kursun mənimsənilməsi üçün 60 saat (4 kredit) nəzərdə tutulmuşdur. Kurs semestr ərzində 15 həftəyə hesablanmışdır. Hər həftə 2 saat mühazirə, 2 saat seminar məşğələsinin keçirilməsi nəzərdə tutulub.

## Fənnin məqsədi və məzmunu

Kursun məqsədi tələbələri vergilərin dünyada və Azərbaycanda yaranma tarixi,inkişaf istiqamətləri və mövcud durumu ilə tanış etmək,eyni zamanda vergitutmanın tətbiqində istifadə olunan metodlarla tanış etmək ,onları vergitutma prosesini dərk etmələrinə köməklik göstərmək və vergilərin hesablanması ,ödənilməsi və bu prosesə nəzarət edilməsi qabiliyyətini formalaşdırmaqdır.Həmçinin tələbələrlə vergitutma sahəsində beynəlxalq təcrübəni bilərək yerli vergilərlə müqayisə etmək bacarığının öyrədilməsidir.

Bu baxımdan vergilərin yaranma tarixi ,inkişaf mərhələləri qədim dövrdə , orta əsrlərdə və müasir dövrümüzdə xüsusiyyətləri dünya və Azərbaycan timsalında təhlil olunacaqdır.Eyni zamanda vergitutma sahəsində nəzəriyyələrin mahiyyəti ,üstün və çatımayan xüsusiyyətləri və tətbiqi imkanları ,vergitutmanın iqtisadi mahiyyəti açıqlanacaqdır.Azərbaycan Respublikasında qüvvədə olan vergi məcəlləsinə uyğun olaraq vergi orqanlarının və vergi ödəyicilərinin hüquqları ,vəzifələri və məsuliyyəti təhlil olunacaqdır.Vergitutma sahəsində idarəetmənin həyata keçirilməsində xüsusi rola malik vergi nəzarətinin mahiyyəti ,formaları ,növləri ,vergi ödəyicilərinin uçotunun aparılması qaydası, səyyar vergi nəzarətinin aparılmasına hazırlıq ,vergi yoxlaması zamanı görüləsi işlər ,yoxlamanın nəticəsinə dair aktın tərtib olunması,baxılması,qərarın qəbul edilməsi və icrası məsələləri ətraflı təhlil ediləcək,vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət halları və şərtləri sizlərə çatdırılacaqdır.Vergitutma sahəsində xüsusi önəm daşıyan vergilərin hesablanması , ödənilməsi və bəyənnamə təqdim edilməsi misallarla şərh olunacaqdır.Hazırda Azərbaycanda tətbiq olunan - fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, əlavə dəyər vergisi, aksizlər,əmlak vergisi, torpaq vergisi, yol vergisi, mədən vergisi,sadələşdirilmiş vergilərin mahiyyəti vergitutma obyekti,vergi ödəyicilərinin vergilərinin hesablanması,vergi dərəcələri,azadolma və güzəştlər və vergilərin müvafiq büdcəyə köçürülməsi qaydaları şərh olunacaqdır.

Habelə Azərbaycanın vergi sistemi oyrən-dən sonra beynəlxalq vergitutmanın xüsusiyyətləri ilə müqayisə ediləcəkdir.
Yekunda biz biləcəyik ki, ideal vergi sistemi heç cəmiyyətə müəssər olmamışdır. Aparılan vergi islahatları bu məqsədə xidmət edir.Vergilər və vergitutma fənni iqtisadi nəzəriyyə, iqtisadi hüquq və sığorta fənnləri ilə qarşılıqlı əlaqədə öyrənilir.

## Fənnin proqramı və həftələr üzrə bölünməsi

| Tarix | Mövzuların adı | Mühazirə (ayrılan saat) | Seminar məşğələsi (ayrılan saat) |
|---|---|---|---|
| Həftə 1 | Vergi inzibatcihğının nəzəri əsəsları və informasiya təminatı | 2 saat | 2 saat |
| Həftə 2 | Azərbaycan Respublikasının vergi orqanlan, onların fəaliyyət istiqamətləri, hüquqları , vəzifələri va funksiyaları | 2 saat | 2 saat |
| Həftə 3 | Ərazi vergi orqanlan, onların strukturu, hüquqları və vəzifələri | 2 saat | 2 saat |
| Həftə 4 | Koomersiya qurumlarının dövlət qeydiyyatının və vergi odayicilarinin ucotunun apanlmasi iizra dövlat vergi orqanlarının işinin təşkili | 2 saat | 2 saat |
| Həftə 5 | Kameral vergi yoxlamasmm apanlmasi va artıq ödənilmis. Vergilərin, faizlarin va maliyya sanksiyalarının büdcədən qaytarılması | 4 saat | 4 saat |
| Həftə 6 | Vergilər və digər tədiyyələr tizra daxilolmaların uçotu islarinin təşkili | 2 saat | 2 saat |
| Həftə 7 | Səyyər vergi yoxlamalan iizrə vergi orqanlarının isinin təşkili | 4 saat | 4 saaat |
| Həftə 8 | Vergi orqanlarında operativ vergi nəzaratinin təşkili | 2 saat | 2 saat |
| Həftə 9 | Vergi borclarının və təqdim edilməmis. Bəyannamələrin alınması sahəsində islərin təşkili | 2 saat | 2 saaat |
| Həftə 10 | Vergi orqanlarında vergi ödəyicilərinə xidmət | 2 saat | 2 saat |

| | | | |
|---|---|---|---|
| | isinin təşkili | | |
| Həftə 11 | Kargüzarlıq və koordinasiya işlərinin taşkili xiisusiyyətləri | 2 saat | 2 saat |
| Həftə 12 | İnsan resurslarının inkişafi sahəsində vergi orqanlarının işinin təskili | 2 saat | 2 saat |
| Həftə 13 | Beynəlxalq miinasibətlər sahəsində işlərin taşkili | 2 saat | 2 saat |

## Fənnin öyrənilməsi üçün metodika

### Mühazirənin quruluşu

Mühazirə 80 dəqiqə müddətə nəzərdə tutulub . Tələbələr mühazirə zamanı mövzu haqqında müvafiq qeydləri apara bilərlər.Tələbələrin mühazirəni bütövlükdə yazmaq imkanı olmadığına görə , onlar mühazirəni elektron vasitələrdən istifadə edərək yaza bilərlər ( mobil telefon ,noutbuk, kamera və s. ).Elektron vasitələri kurs nümayəndəsi tərəfindən mühazirə başlamamışdan əvvəl hazırlanır. Lakin dərs zamanı elektron vasitələrdən digər məqsədlər üçün istifadə etmək qəti qadağandır. Belə hərəkətə görə tələbə məsuliyyət daşıyır. Mühazirənin elektron variantını mühazirə müəllimindən və ya universitetin elektron kitabxanasından əldə edə bilərsiniz.

Mühazirə zamanı slayd materiallardan geniş istifadə olunacaq . Eyni zamanda paralel olaraq müəyyən məqamları misallarla izah edəcəm. Mühazirə zamanı tələbə qeyri-müəyyən qalan məqamları düzgün anlamaq üçün dərsin sonunu gözləmədən müəllimə müraciət edə bilərlər. Hər mövzu üzrə müvafiq ədəbiyyat siyahısı sillabusun axırıncı hissəsində verilmişdir. Əlavə olaraq, tələbələrin internet resuslarından istifadə etməsi məqsədə uyğun sayılır.

Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 % -dən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır ( AR Təhsil Nazirliyinin əmri. Nazirlər Kabinetinin 24 dekabr 2013 tarixli, 348 saylı qərarı)

## Seminar məşğələləri

Seminar məşğələləsində mövzu üzrə müəyyən edilmiş və əvvəlcədən tələbələrin diqqətinə çatdırılmış seminar sualları üzrə sorğu-sual aparılır və hər bir tələbə fərdi olaraq mövzu üzrə təqribən 5-6 dəqiqə hazırladığı slaydlarla çıxış etməlidir.Öz növbəsində seminar müəllimi tələbələrə aydın olmayan məqamların olub-olmaması barəsində auditoriyaya müraciət etməli və qaranlıq qalan sualları cavablandırmalıdır.Daha sonra tələbə seminar üzrə çıxışını bitirdikdən sonra digər tələbə yoldaşları onu əvvəlki mövzular üzrə sorğu-sual etməli və seminar müəllimi tələbənin təqdim etdiyi slayda və mövzunu mənimsəmə səviyyəsinə uyğun qiymətləndirməli,aldığı qiymət barəsində tələbəyə məlumat verməlidir.

Seminar dərsinin növbəti hissəsində müəllimin mövzuya uyğun hazırladığı riyazi məsələlərdən nümunələr işlənilməli,onların həlli qaydası tələbələrə izah olunmalı və növbəti dərs üçün tapşırıqlar verilməlidir.

Tələbələrə tövsiyyəmiz : dərslərdə aktiv iştirak etmək, suallara cavab verməkdən çəkinməmək , sərbəst məntiqi fikirlər yürütməkdir.

## Sərbəst işlər

Sərbəst işlərin təyin olunan vaxtda təqdim etməyiniz xahiş olunur. Sərbəst iş o zaman qəbul olunur ki, tələbənin işi haqqında tam məlumatı var və o əl yazma formasındadır. Əks təqdirdə iş qəbul olunmur və müvafiq olaraq ümumi baldan çıxılır. Gecikdirilmiş sərbəst işlər qəbul olunmur və qiymətləndirilmir. Lakin növbəti ayın balları hesablanarkən sərbəst işlər yuxarıda göstərilən şərtlərlə yenidən təqdim oluna bilər.

İmtahanda iştirak etmədiyiniz halda, səbəbindən asılı olmayaraq tələbəyə “ gəlmədi “ verilir. İmtahanla bağlı yaranan bütün problemlərin həlli üçün yaradılmış imtahan komissiyasına müraciət edilir.

Elan edilmiş fənn qiyməti (mexaniki və ya fənn qiymətinin hesablanmasında səhvlər xaric olmaqla) dəyişilmir. İmtahan qiymətinizdən narazı olduğunuz təqdirdə qiymət elan edildiyi andan imtahan komissiyasına müraciət edə bilərsiniz.

Əgər tələbə üzürlü və ya üzürsüz səbəblərdən dərsdə iştirak etməyibsə o, mənimlə əvvəlcədən razılaşmaq şərti ilə buraxılmış dərsi ödəyə bilər.

Tələbələrdən dürüst və etik davranış tələb olunur.

**Qiymətləndirmə**

Fənn qiymətləri dərsdə iştirak, ev tapşırıqları, aylar üzrə bölünən sərbəst işlər, və mənimsəmə göstəriciləri nəzərə alınmaqla təyin olunacaqdır. Qeyd edilənləri aşağıdakı kimi qruplaşdırmaq olar:

| Tapşırığın növü | Maksimal qiymətləndirmə | Çəkisi (tam qiymətin (%) faizi) |
|---|---|---|
| Dərsdə iştirak | 10 bala qədər | 10% |
| Sərbəst işlər(10 mövzu) | 1 bal hər sərbəst işə | 10% |
| Mənimsəmə göstəriciləri | 30 bala qədər | 30% |
| İmtahan balı | 50 bala qədər | 50% |
| Yekun imtahan balı | 100 bala qədər | 100% |

Hər həftənin bazar ertəsi və cümə günü dərsin olmadığı saatlarda mənim məsləhət günümdür və istənilən tələbə 8 :30 –dan 17 : 00 qədər müraciət edə bilər. Zəruri hallarda mənimlə mobil telefon və ya internet vasitəsilə əlaqə saxlaya bilərsiz.

| № | Movzuların adı | Saatların miqdarı | o cümlədən | |
|---|---|---|---|---|
| | | | | Seminar |
| 1. | Vergi inzibatcihğının nəzəri əsəsları və informasiya təminatı | 4 | 2 | 2 |
| 2. | Azərbaycan Respublikasının vergi orqanlan, onların fəaliyyət istiqamətləri, hüquqları , vəzifələri va funksiyaları | 6 | 4 | 2 |
| 3. | Ərazi vergi orqanlan, onların strukturu, hüquqları və vəzifələri | 4 | 2 | 2 |
| 4. | Koomersiya qurumlarının dövlət qeydiyyatının və vergi odayicilarinin ucotunun apanlmasi iizra dövlat vergi orqanlarının işinin təşkili | 6 | 2 | 4 |
| 5. | Kameral vergi yoxlamasmm apanlmasi va artıq ödənilmis. Vergilərin, faizlarin va maliyya sanksiyalarının büdcədən qaytarılması | 4 | 2 | . 2 |
| 6. | Vergilər və digər tədiyyələr tizra daxilolmaların uçotu islarinin təşkili | 4 | 2 | 2 |
| 7. | Səyyər vergi yoxlamalan iizrə vergi orqanlarının isinin təşkili | 4 | 2 | 2 |
| 8. | Vergi orqanlarında operativ vergi nəzaratinin təşkili | 4 | 2 | 2 |
| 9. | Vergi borclarının və təqdim edilməmis. Bəyannamələrin alınması sahəsində islərin təşkili | 6 | 2 | 4 |
| 10. | Vergi orqanlarında vergi ödəyicilərinə xidmət isinin təşkili | 4 | 2 | 2 |
| 11. | Kargüzarlıq və koordinasiya işlərinin taşkili xiisusiyyətləri | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 12. | İnsan resurslarının inkişafi sahəsində vergi orqanlarının işinin təskili | 4 | 2 | 2 |
| 13. | Beynəlxalq miinasibətlər sahəsində işlərin taşkili | 6 | 4 | 2 |
| | **Cəmi:** | 60 | 30 | 30 |

## Vergi inzibatçılığı

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995

2 Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2017

3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2007

4.Büdcə sistemi haqqında haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı,2002

5.Dövlət rüsumu haqqında Azərbaycan Respublikasınım Qanunu. Bakı, 1995 6.D.A.Bağırov Vergi nəzarəti Dərslik. Bakı,2006

7.F. Ə. Məmmədov, A. F. Musayev, M. M. Sadıqov, Y. A. Kəlbiyev, Z. H. Rzayev Verğilər və verği tutma. Bakı, 2006

7. N. Novruzov., X. Hüseynov. Maliyyə.Bakı,2007.

8. M. Sadıqov, A. Hüseynov, V. Zeynalov Korporativ maliyyə. Bakı, 2007

9.H.İ.Məmmədov Yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının vergi sistemi Bakı , 2008

10.Bəyalı Ataşov , Nurpaşa Novruzov , Elşən İbrahimov Maliyyə nəzəriyyəsi Bakı ,2014

11. Юткина Т.Ф. Налоги и налогообложение. Учебник. Москва, 2002

12.А.Ф.Мусайев, М.М.Садыгов, Р.Б.Магерамов,Р.А.Салайев Налоги и налогообложение в Азербайджане Бакы ,2005